



# Özəl milli teleradio şirkəti efir ənginliyi axtarışında

**Müstəqil Azərbaycanın ilk özəl teleşirkətlərindən olan “Space”in ilk dəfə efirə çıxdığı gündən 25 il keçir. Ötən illərdə ölkənin milli teleməkanında özünə layiqli yer tutmuş, 2021-ci ildən sutkalıq efir fəaliyyətinə keçən telekanalın kollektivi növbəti yubileyini sanballı yaradıcılıq uğurları və yeni maraqlı layihələrlə qarşılayır.**

Yayım şəbəkəsi respublikanın sosial, siyasi və mədəni həyatını əks etdirən gündəlik informasiya buraxılışlarını, analitik verilişləri, canlı “tok-şou”ları, intellektual oyunları, musiqili-əyləncəli və maarifləndirici proqramları əhatə edən “Space” Azərbaycan tamaşaçılarının və xaricdə yaşayan soydaşlarımızın maraqla izlədiyi telekanallar sırasındadır. “Space” sözü ingiliscə meydan, kosmos, ənginlik anlamına gəlir. Bu adı daşıyan teleradio şirkəti də daim ənginlik axtarışındadır. Kollektiv inanır ki, ənginliyi təfəkkür və düşüncə zənginliyi ilə fəth etmək olar.

**“Space” teleradio şirkətinin direktoru, Əməkdar incəsənət xadimi Müşfiq Hətəmov bizimlə söhbətə yubileyə töhfə olan yeni layihələri barədə məlumatla başladı:**

– Şirkətin 25 illik yubileyi ərəfəsində gerçəkləşdirdiyimiz üçmərhələli anti-böhran tədbirinin birinci mərhələsini uğurla başa vurduq. Artıq ikinci mərhələyə qədəm qoymuşuq. Bu mövsümdə hədəf yeni layihələrin həyata keçirilməsi və reklam bazarında dayanıqlılığın təmin edilməsidir. Üçüncü mərhələdə “Space” kanalının yeni konsepsiyasını elan edib, fərqli formatda efirə çıxacağıq. Çox şey ikinci mərhələni düzgün həll etməkdən asılıdır.

Bilirsiniz ki, bu gün dünyada söz audiovizual biçimdə daha təsirli media vasitəsidir. Bu təsirin gücü dünyanın inkişaf xətti olaraq insanların görmə və qəbul etmə tələbi ilə dəyişir. Bütün bunları nəzərə alaraq çağdaş çağırışları cavablandıra bilən bir televiziya qurmağa çalışırıq. Qarşımızda duran əsas hədəflərdən biri budur.

Nəzərdə tutduğumuz yenilikləri gerçəkləşdirməklə tamaşaçılara yeni mövzular, fərqli yanaşmalar və maraqlı simalar təqdim edəcəyik. Təqribən, 10-dan çox yeni, müxtəlif formatlı layihəmiz olacaq. İnanırıq ki, bununla qazandığımız nüfuzu qoruyub saxlayacaq, auditoriyamızı daha da genişləndirəcəyik. Kollektivimiz peşəkarlıqla və həvəslə gecə-gündüz çalışır. Bu, uğurları artırmaq üçün çox əhəmiyyətlidir.

**– Azərbaycanı dünyaya təqdim etməkdə teleyayımın imkanları hüdudsuzdur. Burası da var ki, xarici auditoriyada rəqabət aparmaq da asan deyil.**

– Şübhəsiz, beynəlxalq teleməkanda tamaşaçı qazanmaq böyük məharət, çevik yanaşmalar tələb edir. İstəyirik ki, Azərbaycanın audiovizual məkanı beynəlxalq platformalarda öz sözünü deyə bilsin. Çalışacağıq ki, “Space” televiziyası yalnız Azərbaycan daxilində deyil, öz layihələri ilə bir çox xarici platformalarda da yayımlansın. “Azərbaycanfilm” kinostudiyasına rəhbərlik etdiyim illərdə bu məqsədə nail ola bildik. Azərbaycan filmləri 50-dən çox dövlətdə nümayiş olundu və festivallarda iştirak etdi.

İndi isə bu uğurun televiziya formatını həyata keçirəcəyik, ölkəmizi beynəlxalq platformalarda daha geniş təmsil edəcəyik. Müəyyən danışıqlar aparırıq və çalışacağıq ki, Azərbaycan dəyərlərini, həqiqətlərini dünya ictimaiyyətinə layiq olduğu səviyyədə çatdıraq. Azərbaycan mədəniyyətinin milli və bəşəri dəyərlərinin daha çox işıqlandırılmasını nəzərdə tuturuq. Fəaliyyətimizi bu istiqamətlərdə quracağıq.

**– Milli teleməkanda da rəqabət güclüdür. Çağdaş tamaşaçını, xüsusən, gəncləri bir kanalın qarşısında saxlamaq çox çətindir.**

– Hər şeyi zaman göstərər. “Space” televiziyası olaraq elə bir formatda meydana çıxmalıyıq ki, seçilək və daha çevik rəqabət apara bilək. Bu gün televiziyalarımız arasında keyfiyyət və reklam uğrunda ciddi rəqabət gedir. Reytinqimizi ardıcıl izləyir, fəaliyyətimizdə onun nəticələrini ciddi nəzərə alırıq. Bir müddət kanalın reytinqində yüksəliş oldu. Sonra maddi sıxıntılara görə tədricən bəzi verilişləri bağladıq. Bu da reytinqin düşməsinə səbəb oldu. Cari mövsümdə başladığımız yeni layihələr onu göstərir ki, reytinqimiz yüksələcək. Televiziyanın nüfuzunu artıran əsas məsələ yaxşı layihələrdir və ona da qədərincə maliyyə lazımdır. Bu maliyyəni isə məhz maraqlı layihələrlə qazanmalıyıq. Televiziya elə formatdır ki, orada komponentlər yerində düzgün olmayanda və ölçülməmiş kiçik addımlar atılanda çox ağır fəsadlar verə bilər. Ona görə də tədrici, lakin davamlı hərəkət etmək lazımdır.



**– Maraqlı layihələr deyəndə nəyi nəzərdə tutursunuz?**

– Maraqlı layihələr xalqın ümumi və taleyüklü gözləntilərini cavablandıran təqdimatlardır. Biz bu baxımdan bir çox layihələr həyata keçiririk və bunu davam etdirəcəyik. Prezident İlham Əliyevin Qarabağa hər gedişində yeni bir inkişaf mərhələsi görürük. Məsələn, işğaldan azad edilən torpaqlarımızda məktəblərin, su xətlərinin, gözəl binaların bünövrəsi qoyulub, qəsəbələr salınır. Biz də bu quruculuq işlərinə dəstək olaraq çalışırıq ki, hər dəfə Qarabağa gedəndə elə bir layihə həyata keçirək, dünya görsün ki, azərbaycanlılar öz doğma yurd-yuvalarına yeni nəfəs, həyat gətirməyə başlayıblar.

Mədəni irsimizin Qarabağda yenidən bərpası və inkişafı istiqamətində görülən işlərə “Space” kanalının töhfəsi olaraq ilk işlərdən biri mart ayında “Yəhərlənib atlarımız” adlı layihəmizin reallaşması oldu. Bu layihə çərçivəsində Qarabağ atlarının öz doğma torpaqlarında yürüşü keçirildi. Bu layihəmizi TMB də yayımladı. Bununla yanaşı, kanalımızda əsgərlərimizin əl yazılarından ibarət sərgi təşkil etdik. Bilirsiniz ki, hazırda Qarabağda böyük quruculuq işləri gedir. Əsgərlərimizin yazdıqları əl yazıları silinə bilərdi. Tarixdən o yazılar silinməsin deyə biz onları toplayıb sərgi keçirdik.

Növbəti layihəmiz isə “Şuşaya salam” oldu. Layihəyə görə Mədəniyyət naziri Anar Kərimova, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anara və Birliyin katibi Səlim Babullaoğluya dərin təşəkkürümüzü bildiririk. Layihənin böyük bir dəyəri var, dünyada siyasətçilərlə yanaşı, ziyalıların, yazıçıların da Azərbaycanın haqq işinə münasibəti özünü göstərir. Bu, məni çox sevindirdi.

Qarabağla bağlı bir neçə layihəmiz də startdadır ki, onları yaxın gələcəkdə həyata keçirəcəyik. “Space”də milli musiqimizin təbliği məqsədilə yeni musiqi yarışması başlanacaq. Bu da milli dəyərlərimizin, musiqi ənənələrimizin qorunması və təbliğində mühüm yer tutacaq.

**– Müşfiq müəllim, “Xalq qəzeti”nin redaksiyası “Space”in kollektivini telekanalın 25 yaşa çatması münasibətilə səmimi təbrik edir, həmkarlarımıza yeni yaradıcılıq uğurları və yüksək efir reytinqi arzulayır.**

***Söhbəti apardı:***
***Tahir AYDINOĞLU, “Xalq qəzeti”***

Xalq qəzeti .- 2022.- 14 oktyabr. - S.7.